# Ərazi itkilərimizin səbəbləri və tarixi gerçəklər



**Rahib ZEYNALOV,**
***"İnnovasiya İstehsalat Mərkəzinin" direktoru, Rusiya Mühəndislik Akademiyasının həqiqi, Azərbaycan Mühəndislik Akademiyasının müxbir üzvü, texnika elmləri doktoru, dosent***

**BMT TŞ-nın 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnaməsində "Baş Katibə, ATƏM-in fəaliyyətdə olan Sədrinə və ATƏM-in Minsk Konfransının Sədrinə Minsk prosesinin gedişi və yerlərdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi və bununla əlaqədar ATƏM ilə BMT arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrini davam etdirmək barədə xahişini təkrar etsə" də, 12 noyabr 1993-cü ildən bu günə kimi nə Baş Katibə, nə də ATƏM-in fəaliyyətdə olan Sədri, nə ATƏM-in Minsk Konfransının sədri Minsk prosesinin gedişi barədə Şuraya məruzə edilməmişdir.**

**Məqsəd Minsk prosesindən uzaqlaşmaq, münaqişəni BMT TŞ-nın 14 oktyabr 1993-cü il tarixli 874 saylı qətnamədə göstərildiyi kimi "Rusiya Federasiyasının yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi effektiv və daimi etməklə aradan qaldırmaq olmuşdur".**

**Bu məqsədlə yuxarıda qeyd etdiyim kimi, mühəmmalı "Bişkek protokolu" tərtib edilmişdir. Heç bir hüquqi xarakter daşımayan "Bişkek protokolu" 12 may 1994-cü ildən "qüvvəyə" minmiş, elə həmin gündən cəbhə xəttində aktiv hərbi əməliyyatlar müvəqqəti olaraq dayandırılmışdır.**

***(Əvvəli ötən sayımızda)***

2020-ci ilin 27 sentyabrında yenidən müharibə baş verib, Azərbaycan Ermənistan tərəfindən zəbt olunmuş bütün rayonların azad olduğu məqamda yenidən Rusiya tərəfindən müharibə dayandırılıb, Azərbaycan prezidenti İlham Əliyev, Ermənistan Baş Naziri Nikol Paşinyan və RF-nın prezidenti V.Putin 2020-ci il noyabr ayının 9-dan 10-na keçən gecə müharibəni dayandırmaq haqqında bəyanat imzalayıb (onlayn rejimdə).

Bəyanatda qeyd olunur:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtilə saat 00:00-dan etibarən DQ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılaraq AR-ı və ER-ı hazırda tutduqları mövqelərdə (mövqelər - xəritə göstərilmir) qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu AR-na qaytarılır.

3. DQ-da təmas xətti və Laçın dəhlizi boyu RF-nın 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingent yerləşdirilir.

4. RF-nın sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilirg

5. Münaqişə tərəflərinin razılaşmaları əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək AR-nın Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. DQ-da Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km enində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində DQ-da Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

AR Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar DQ-ın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. ER vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə AR-nın qərb rayonları və NMR arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiya Federal təhlükəsizliyi xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında NMR ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

Bişkek protokolunda olduğu kimi, bu Bəyanat da aşağıdakı səbəblərdən hüquqi sənəd sayıla bilməz.

1. Sənəd üç ölkənin parlamentləri tərəfindən ratifikasiya olmayıb.

2. Sənəd ATƏT-in Minsk qrupu tərəfindən imzalanmayıb.

3. Üç ölkə birlikdə Minsk qrupunun iştirakı olmadan bəyanat verə bilməz.

4. Ölkələr (ölkə rəhbərləri) razılaşma əldə edərkən hər ölkənin özünün vəzifələri və öhdəlikləri razılaşma göstərilməyib.

5. Bəyanatın 1-ci bəndində tərəflər kimi iki tərəf - AR və ER göstərilir.

6. Bəyanatın 2-ci bəndində 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu, 6-cı bəndində isə 15 noyabr 2020-ci il tarixinədək AR-nın Kəlbəcər, 1 dekabr 2020-ci il tarixinədək Laçın rayonunun qaytarılması göstərilir. Digər Ağdərə, Xankəndi, Xocalı, Xocavənd, Cəbrayıl, Füzuli, Zəngilan rayonların qaytarılması vaxtı bəyanatda göstərilmir. Bu bənddə: "Bundan sonra Tərəflər adlandırılacaq AR və ER hazırda tutduqları mövqelərdə qalacaqlar" cümləsinin RF prezidentinə aid olması şübhə yaratmır. Bəyanatda tərəflərin "tutduqları yer" dedikdə AR-nın tutduğu yer kimi başa düşülməlidir, yəni Azərbaycan Ermənistan tərəfindən qaytarılmamış Xankəndi, Ağdərə, Xocavənd, Xocalı, Cəbrayıl, Füzuli, Zəngilan rayonlar barədə bundan sonra iddia qaldıra bilməz.

Bəyanatda 1 dekabr 2020-ci il tarixinədək Laçın rayonunun qaytarılması göstərilsə də, bəyanatdan 7 aydan çox vaxt keçsə də, Laçın rayonu nəinki qaytarılmayıb, hətta oraya getmək belə qadağandır.

7. Bəyanatın 3-cü bəndində DQ-da təmas xətti və Laçın dəhlizi boyu RF-nin 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingentin yerləşdirilməsinin gecə yarısı kim təyin edib? Bu təyinat ATƏM-in Minsk qrupunun çoxmillətli sülhməramlı kontingentinə adekvatdırmı?

8. Bəyanatın 4-cü bəndində RF-nın sülhməramlı kontingentinin erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel Laçın dəhlizi boyu yerləşdirilməsi göstərilir. Laçından məcburi köçkünlərin Laçına qaytarılması haqqında heç nə deyilmir. Bəyannaməyə görə Laçın rayonu 1 dekabr 2020-ci il tarixinədək "qaytarılsa" da, 6 ay keçməsinə baxmayaraq Laçın rayonuna bu günə kimi bir nəfər belə qayıtmamışdır.

9. Kəlbəcər rayonunun 15 noyabr 2020-ci il tarixinədək qaytarılması bəyanatda göstərilsə də, 10 gün gec boşaldılıb, indiyə kimi oraya getmək mümkün deyil, guya ərazi minalanıb. Əgər ərazi minalanmışdısa, orada işləyən, yaşayan ermənilər, əcnəbilər minalanmış ərazidə necə yaşamışlar?




Azərbaycan Demokratik Respublikasının (1918-1920) və Azərbaycan Respublikasının uyğun inzibati-ərazi vahidləri

10. Bəyanatın 6-cı bəndində göstərilir ki, Tərəflərin razılığı ilə növbəti 3 il ərzində DQ-da Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. AR-ı Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

Bu bənd üzrə görüləcək işlərin hansı tərəfin görəcəyi göstərilmədiyindən, sonuncu cümləyə görə belə başa düşülür ki, bu işləri görmək Azərbaycan tərəfinin öhdəsinə düşür.

11. Bəyanatın 7-ci bəndinə görə, "Daxili məcburi köçkünlər və qaçqınlar DQ-ın ərazisinə və ətraf rayonlara BMT-nın Qaçqınlar üzrə Ali komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır", yeni mənim başa düşdüyümə görə, heç vaxt geri qaytarılmayacaq.

12. Bəyanatın 9-cu bəndinə görə "Bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. ER-vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə AR-nın qərb rayonları və NMR arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat təhlükəsizliyi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. (Xəbərin mənbəyi: https://axar.az/news/siyaset (5145.27.htm/).

13. Bəyanat Budapeşt zirvə görüşündə münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi barəsində qəbul olunmuş qərarına ziddir.

14. Bəyanatın 3-6-cı bəndlərindən fərqli olaraq "Bişkek protokolu"nda "gqoşunların zəbt olunmuş ərazilərdən çıxarılmasını və kommunikasiyanın bərpasını, qaçqınların geri qaytarılmasını, danışıqların davam etdirilməsini" nəzərdə tutan qərar qəbul olunsa da, bu qərar bu günə kimi kağız üzərində qalmışdır.

15. Bəyannamənin imzalanmasında əsas məqsəd Rus "Sülhməramlı" qüvvələrinin Laçın dəhlizi boyu yerləşdirməklə, öncə ermənilər tərəfindən zəbt olunan torpaqların daha 25-30 il Rusiya tərəfindən zəbt olunması və AR-nın suverenliyinin pozulmasına yönəlişin olmasıdır.

Bu gün Azərbaycan və Ermənistan xalqlarının müharibə istəmediklərini və Avropameyllı N.Paşinyanın Ermənistan parlamenti seçkilərində üstünlük qazanması imkan verir ki, Azərbaycan və Ermənistan rəhbərliyi 10 noyabr 2020-ci il tarixli Bəyənnamədən imtina etsin, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsilə bağlı 822 (30 aprel 1993), 853 (29 iyul 1993), 874 (14 oktyabr 1993) və 884 (12 noyabr 1993) saylı qətnamələr çərçivəsində və AR prezidentinin, ATƏM-in prinsipləri, BMT TŞ-nın qətnamələri əsasında sülh təklifi, DQ-ın erməni əhalisinin təhlükəsizliyinə təminat verməyə hazır olduğu, münaqişə zonasında ATƏM-insülhü qoruyan qüvvələrinin yerləşdirilməsinə razı olduğu, milli azlıq təşkil edən ermənilərin hüquqlarının həyata keçməsi üçün AR dövlətinin tərkibində DQ-ın statusunu müzakirə etməyi və Azərbaycanın DQ regionu ilə ER arasında nəqliyyat kommunikasiyalarının normal işləməsini təmin etməsi barədə bəyanatda Ermənistan Respublikası rəhbərliyi ilə öz aralarında BMT TŞ-nın səlahiyyətli nümayəndəsinin iştirakı ilə sülh müqaviləsi bağlasınlar.